Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_______________dos. Zaur Məmmədov
"26" "XII" 2025-ci il

**Fənn sillabusu**

İxtisas: 6004005-"Maliyyə", 6004008-"Mühasibat", 6004004-"İqtisadiyyat"
Fakültə: İqtisadiyyat və idarəetmə
Kafedra: Maliyyə idarəetməsi və audit

**I.Fənn haqqında məlumat:**

Fənnin adı: S/F (Büdcə sistemi)
Fənn proqramı: (ARTN-nin 28.01.2015-ci il tarixli 91 saylı əmr)
Kodu:İPFS-B08, İPFS-B09
Tədris ili: V (2025-2026) Semestr: II
Tədris yükü: Cəmi: 22 saat (10 saat mühazirə, 4*3=12 saat seminar)
Tədris forması: Qiyabi
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 4 kredit
Auditoriya №:
Saat:

**II.Müəllim haqqında məlumat: Mustafayev Vaqif Rəis oğlu, baş müəllim**

Məsləhət günləri və saatı: II-I II gün saat $12^{00}$-$13^{00}$.
E-mail ünvanı: vaqif.mustafayev.1960@mail.ru
Kafedranın ünvanı: Lənkəran ş., Füzuli küç.,170-a

**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

Əsas ədəbiyyat

1. Novruzov N., İbrahimov E. Büdcə sistemi. Dərslik. Bakı, 2011
2. Bədəlov S.Ş. Büdcə sistemi. Dərslik. Bakı, 2003.
3. Vəliyev Zaur Dövlət büdcəsi. Məlumat sorğu kitabı. Bakı, 2006

Əlavə ədəbiyyat

4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002
5. Aman Khan Fundamentals of Public Budgeting and Finance. Textbook, Latest edition 2024 (https://link.springer.com/book/10.1007/978-3-031-53674-8?utm_source=chatgpt.com)
6. Robert D. Lee Jr., PhD; Ronald W. Johnson, PhD; Philip G. Joyce, PhD Public Budgeting Systems Tenth Edition, 2021 (https://www.jblearning.com/catalog/productdetails/9781284198980?srsltid=AfmBOop_lOwiFJ_MxK78uFdhzTrO2uOPp5vxOn_jlv2RhGzh5TJ3hzVC&utm_source=chatgpt.com)

**IV.Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən İqtisadiyyata giriş fənninin tədrisi vacibdir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Büdcə sistemi haqqında elm maliyyə haqqında elmin tərkib hissəsidir. Geniş təkrar istehsal, cəmiyyətin idarə edilməsi və dövlət haqqında nəzəriyyələr dövlət büdcəsi haqqında elmin əsasıdır. Ümumdövlət mərkəzləşdirilmiş pul vəsaiti fondunun yaradılması və istifadə edilməsi zamanı dövlət müəssisələr, təşkilatlar və əhali arasında əmələ gələn iqtisadi münasibətlər büdcə sistemi haqqında elmin predmetidir. Büdcə sistemi vasitəsilə əldə edilən maliyyə vəsaitləri dövlətin müxtəlif funksiya və vəzifələrinin yerinə yetirilməsini təmin edir. Büdcə sisteminin gəlirləri və xərclərinin planlaşdırılması və bu sahədə nəzarət işinin təşkilini həyata keçirməkdir. Dövlət büdcəsi və müxtəlif subyektlər arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsində, müasir elmi-iqtisadi təfəkkürün formalaşmasında bakalavr pilləsində iqtisadçı kadrların hazırlanmasında tədris olunan fənnlərdən biri də "Büdcə sistemi" fənnidir. Dövlətin iqtisadi və sosial siyasətinin həyata keçirilməsinin əsas mexanizmi maliyyə sistemi və onun tərkib hissəsi olan büdcə sistemidir. Büdcə vasitəsilə dövlətin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaranması və istifadəsi həyata keçirilir.Dövlət büdcədən özünün funksiyalarını həyata keçirmək üçün əsas iqtisadi alət kimi istifadə edərək, eyni zamanda iqtisadi və sosial siyasəti də həyata keçirir. Büdcə iqtisadi kateqoriya kimi maliyyə sisteminin tərkib hissəsidir, pul münasibətlərini təzahür etdirir və maliyyənin funksiyalarını özündə əks etdirir.

Fənnin əsas məqsəd və vəzifələri aşağıdakılardır: büdcə sisteminin sosial-iqtisadi mahiyyətini, əhəmiyyətini və respublikanın iqtisadi və sosial vəzifələrinin yerinə yetirilməsində büdcə sisteminin rolunu aydınlaşdırmaq, büdcəyə tədiyyələrin hesablanması və ödənilməsi qaydası ilə, müəssisələrə, sosial-mədəni tədbirlərə xərclərin planlaşdırılması və maliyyələşdirilməsi üsulları ilə tanış olmaq, büdcənin planlaşdırılması sahəsində maliyyə orqanlarının iqtisadi və nəzarət işinin təşkilini nəzərdən keçirmək və i.a. Konkret olaraq bu istiqamətdə gələcək iqtisadçılara biliklər öyrətməkdir.

CamScanner ile tarandı

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal- tələbənin cavabı əsasən düzgündür;
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam–intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı:** Cəmi: 22 saat (10 saat mühazirə, 4*3=12 saat seminar)

| № | Keçirilən mühazirə, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Müh. Saat | Tarix | Sem. Saat | Tarix |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | Mühazirə | | | | |
| 1 | **Mövzu: Büdcənin sosial- iqtisadi mahiyyəti, büdcə quruculuğu və büdcə sistemi**<br>Plan<br>1.Büdcənin sosial-iqtisadi mahiyyəti<br>2.Büdcənin funksiyaları<br>3.Dövlət büdcəsinin əsas əlamətləri<br>4.Büdcə quruculuğunun mahiyyəti və tərkib hissəsi<br>5.Azərbaycan Respublikasının büdcə sistemi<br>6.Büdcələrarası münasibətlər, büdcələrin tənzimlənməsi<br>Mənbə: [Mühazirə materialları, 1-6] | 2 | | 2 | |
| 2 | **Mövzu: Büdcə hüququ və Azərbaycan Respublikasında büdcə prosesinin təşkili əsasları**<br>Plan:<br>1. Büdcə hüququ anlayışı və maliyyə hüququnun tərkib hissəsi kimi<br>2. Büdcə prosesinin mahiyyəti və təşkili prinsipləri<br>3. Büdcə prosesinin iştirakçıları və onların səlahiyyətləri<br>4. Büdcə prosesinin ayrı-ayrı mərhələlərinin qısa xarakteristikası<br>5. Maliyyə planlaşdırılması və büdcə proqnozlaşdırılması<br>6. Büdcə layihəsinin müzakirəsi və təsdiqi<br>7. Dövlət büdcəsinin icrası və büdcə icrası üzərində maliyyə nəzarəti<br>Mənbə: [Mühazirə materialları, 1-6] | 2 | | | |

CamScanner ile tarandı

| | | | | | |
|---|---|---|---|---|---|
| 3 | **Mövzu: Azərbaycanın büdcə siyasəti, Azərbaycan Respublikasının dovlət büdcəsinin gəlirləri və xərcləri sistemi**<br>Plan:<br>1. Azərbaycanın büdcə siyasətinin nəzəri əsasları<br>2. Dövlət büdcəsinin gəlirlər sisteminin mahiyyəti<br>3. Dövlət büdcəsinin gəlirlər sisteminin tərkibi və quruluşu<br>4. Büdcənin qeyri - vergi gəlirləri<br>5. Büdcədən maliyyələşən idarə müəssisə və təşkilatların xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları<br>6. Büdcə xərclərinin təsnifatı<br>7. Büdcədən maliyyələşmə prinsipləri və formaları<br>8. Smeta-büdcə maliyyələşdirilməsi<br>9. Xərclərin normalaşdırılması və maddi, maliyyə, büdcə normaları<br>Mənbə: [Mühazirə materialları, 1-6] | 2 | | 2 | |
| 4 | Mövzu: **Təhsil, səhiyyə və əhalinin sosial müdafiəsi xərcləri**<br>Plan:<br>1. Təhsil xərclərinin tərkibi, quruluşu və maliyyələşdirilməsi qaydası<br>2. Təhsil müəssisələrinin və uşaq evlərinin saxlanması xərcləri<br>3. Səhiyyə xərclərinin tərkibi və quruluşu<br>4. Əhalinin sosial müdafiəsi xüsusiyyətləri<br>5. Sosial sığorta xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi<br>6. Sosial müavinət xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi<br>7. Əmək pensiyalarının növləri, tərkibi və təyin edilməsi şərtləri<br>Mənbə: [Mühazirə materialları, 1-6] | 2 | | | |
| 5 | **Mövzu: Dövlət inzibati xərcləri və büdcələrarası münasibətlər**<br>Plan:<br>1. Azərbaycan Respublikasının dövlət hakimiyyət, müdafiə və milli-təhlükəsizlik orqanlarının saxlanmasına büdcə xərcləri<br>2. Azərbaycan Respublikası dövlət büdcəsindən məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanlarının saxlanması xərcləri<br>3. Yerli özünüidarə orqanlarının büdcə xərcləri<br>4. Büdcələrarası münasibətlərin mahiyyəti və təşkili prinsipləri<br>5. Azərbaycan Respublikası subyektlərinə dövlət büdcəsindən maliyyə dəstəyinin formaları və dövlət büdcəsindən regionlara verilən subvensiyalar<br>6. Büdcə krediti və onun formaları<br>Mənbə: [Mühazirə materialları, 1-6] | 2 | | | |
| X | Cəmi: | 10 | | 4 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

Müasir şəraitdə dövlətin baş maliyyə planı sayılan büdcə sisteminin mükəmməl öyrənilməsindən ötrü məsuliyyətli, savadlı kadrların hazırlanmasına böyük ehtiyac vardır. Dövlət büdcəsi və müxtəlif subyektlər arasında mövcüd iqtisadi əlaqələrin təhlili və inkişaf etdirilməsi istiqamətində işlərin görülməsi vacibdir. Dünyada davam etməkdə olan iqtisadi böhran şəraitində büdcə proqnozlaşdırılmasının dürüst həyata keçirilməsinin və ardıcıl obyektiv təhlillərin aparılmasının böyük əhəmiyyəti vardır. Bu istiqamətdə gənc mütəxəssislərin hazırlanması vacib məsələlərdən sayılmalıdır. Büdcənin tarazlaşdırılması istiqamətində işlərin görülməsi, həmçinin toplanan gəlirlərin azalmasının məhdudlaşdırılması üçün nəzəri əsaslar işlənib hazırlanmalıdır.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Büdcənin sosial-iqtisadi mahiyyəti, büdcənin funksiyaları və onun əsas əlamətləri haqqında biliklərə yiyələnir;
- Büdcə layihəsinin müzakirəsi, təsdiqi, icrası və büdcə icrası üzərində maliyyə nəzarəti ilə bağlı biliklərə yiyələnir;
- Dövlət büdcəsinin gəlirlərini və xərcləri ilə bağlı biliklər əldə edir;
- Təhsil və səhiyyə xərclərinin tərkibi, quruluşu və maliyyələşdirilməsi qaydası ilə bağlı biliklərə yiyələnir;
- Yerli özünüidarə orqanlarının büdcə xərcləri və büdcələrarası münasibətlərin təşkili prinsiplərini öyrənir;
- Azərbaycan Respublikası subyektlərinə dövlət büdcəsindən maliyyə dəstəyinin formaları və dövlət büdcəsindən regionlara verilən subvensiyalarla bağlı biliklər əldə edir və s;

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV. Kollekvium sualları:**

**--blok--**

1. Büdcənin sosial-iqtisadi mahiyyəti
2. Büdcənin funksiyaları
3. Dövlət büdcəsinin əsas əlamətləri
4. Azərbaycan Respublikasının büdcə sistemi

CamScanner ile tarandı

--blok--
5. Büdcə hüququ anlayışı və maliyyə hüququnun tərkib hissəsi kimi
6. Büdcə prosesinin mahiyyəti və təşkili prinsipləri
7. Dövlət büdcəsinin gəlirlər sisteminin tərkibi və quruluşu

--blok--
8. Büdcə xərclərinin təsnifatı
9. Sosial sığorta xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi
10. Büdcələrarası münasibətlərin mahiyyəti və təşkili prinsipləri

**XV. Fənn üzrə imtahan sualları:**

--blok--
1. Büdcənin sosial-iqtisadi mahiyyəti
2. Büdcənin funksiyaları
3. Dövlət büdcəsinin əsas əlamətləri
4. Büdcə quruculuğunun mahiyyəti və tərkib hissəsi
5. Azərbaycan Respublikasının büdcə sistemi
6. Büdcələrarası münasibətlər, büdcələrin tənzimlənməsi

--blok--
7. Büdcə hüququ anlayışı və maliyyə hüququnun tərkib hissəsi kimi
8. Büdcə prosesinin mahiyyəti və təşkili prinsipləri
9. Büdcə prosesinin iştirakçıları və onların səlahiyyətləri
10. Büdcə prosesinin ayrı-ayrı mərhələlərinin qısa xarakteristikası
11. Maliyyə planlaşdırılması və büdcə proqnozlaşdırılması
12. Büdcə layihəsinin müzakirəsi və təsdiqi
13. Dövlət büdcəsinin icrası və büdcə icrası üzərində maliyyə nəzarəti

--blok--
14. Azərbaycanın büdcə siyasətinin nəzəri əsasları
15. Dövlət büdcəsinin gəlirlər sisteminin mahiyyəti
16. Dövlət büdcəsinin gəlirlər sisteminin tərkibi və quruluşu
17. Büdcənin qeyri - vergi gəlirləri
18. Büdcədən maliyyələşən idarə müəssisə və təşkilatların xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları
19. Büdcə xərclərinin təsnifatı
20. Büdcədən maliyyələşmə prinsipləri və formaları
21. Smeta-büdcə maliyyələşdirilməsi
22. Xərclərin normalaşdırılması və maddi, maliyyə, büdcə normaları

--blok--
23. Təhsil xərclərinin tərkibi, quruluşu və maliyyələşdirilməsi qaydası
24. Təhsil müəssisələrinin və uşaq evlərinin saxlanması xərcləri
25. Səhiyyə xərclərinin tərkibi və quruluşu
26. Əhalinin sosial müdafiəsi xüsusiyyətləri
27. Sosial sığorta xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi
28. Sosial müavinət xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi
29. Əmək pensiyalarının növləri, tərkibi və təyin edilməsi şərtləri

--blok--
30. Azərbaycan Respublikasının dövlət hakimiyyət, müdafiə və milli-təhlükəsizlik orqanlarının saxlanmasına büdcə xərcləri
31. Azərbaycan Respublikası dövlət büdcəsindən məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanlarının saxlanması xərcləri
32. Yerli özünüidarə orqanlarının büdcə xərcləri
33. Büdcələrarası münasibətlərin mahiyyəti və təşkili prinsipləri
34. Azərbaycan Respublikası subyektlərinə dövlət büdcəsindən maliyyə dəstəyinin formaları və dövlət büdcəsindən regionlara verilən subvensiyalar
35. Büdcə krediti və onun formaları

Sillabus "Maliyyə idarəetməsi və audit" kafedrasının "26" "XII" 2025-ci il tarixli (07 saylı protokol) iclasında təsdiq olunmuşdur.

Kafedra müdiri: dos. Əlixan Bədəlov

Fənn müəllimi: b/m. Vaqif Mustafayev

CamScanner ile tarandı